

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 98 (23.740)**

*2 iyun 2021-ci il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


## "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Zəngin maarifçilik ənənələrinin təsiri ilə yaranmış "Şərq qapısı" qəzetinin ilk nömrəsinin nəşr olunmasından 100 il ötür.

1921-ci il noyabrın 9-da nəşrə başlayan qəzet Naxçıvanda maarifin, elmin və ictimai fikrin inkişafına mühüm töhfələr vermiş, peşəkar jurnalist kadrların hazırlanmasında baza rolunu oynamışdır. Ötən əsrin 70-80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin qayğısı ilə qəzetin böyük formatda nəşri təmin edilmiş, qəzetdə xalqımızın milli dəyərlərinə və mədəniyyətinə həsr olunmuş yazılar işıq üzü görmüş, 50 illik yubileyi qeyd olunmuşdur. 1990-1993-cü illərdə isə "Şərq qapısı" qəzeti görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanın xilası naminə həyata keçirdiyi tədbirləri və qəbul etdiyi tarixi qərarları geniş xalq kütləsinə çatdırmış, informasiya blokadasının aradan qaldırılmasında və milli dövlət quruculuğu yolunda fəal mübarizlərdən olmuşdur.

Müstəqillik illərində "Şərq qapısı" qəzetinin maddi-texniki bazası gücləndirilmiş, yaradıcılıq imkanları genişləndirilmiş, rəngli nəşrinə başlanmış, yubileyləri dövlət səviyyəsində qeyd olunmuşdur.

"Şərq qapısı" qəzeti Naxçıvanın tarixini və keçdiyi inkişaf yolunu gələcək nəsillərə çatdıran salnamədir. Qəzet bu gün də muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişafına öz töhfəsini verir.

Muxtar respublikanın ictimai-siyasi və sosial-iqtisadi həyatındakı yerini nəzərə alaraq və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Şərq qapısı" qəzetinin 100 illik yubileyi qeyd olunsun.
2. "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 iyun 2021-ci il*

## Muxtar respublikamız sosial-iqtisadi inkişafın yeni mərhələsində

*Artıq bir aya yaxındır ki, hər bir naxçıvanlı may ayının 10-da muxtar respublikada səfərdə olmuş ölkə başçısının qədim diyarımızda gedən qurub-yaratmaq proseslərinə verdiyi yüksək dəyərin sevincini yaşayır:* ***"Təəssüratlarım çox müsbətdir. Hər zaman Naxçıvanda olanda, buradakı inkişafı görəndə çox sevinirəm. Bu, mənim Naxçıvana 15-ci səfərimdir və hər bir səfər çərçivəsində bir çox obyektlərin açılışında iştirak edirəm. Naxçıvan sürətlə inkişaf edir. Bütün sahələr üzrə işlər müsbət istiqamətdə gedir... Yollarla, elektrik təchizatı, qazlaşdırma ilə bağlı – bütün istiqamətlər üzrə muxtar respublikada görülən işlər məni çox sevindirir. Təkcə onu demək kifayətdir ki, qazlaşdırmanın səviyyəsi artıq 100 faizə çatıb. Elektrik enerjisi ilə təchizat 100 faizə çatıb və Naxçıvanda çox böyük enerji potensialı yaradılıb".***



Həyatımızın hər bir sahəsini əhatə edən müsbət irəliləyişləri hər kəs görür. Naxçıvanlılar üçün isə bu artıq adiləşib. Çünki görülən işlərlə birgə addımlayırıq. Qurulanların, yeni yaradılanların sayı günbəgün artır. Bu, dünənə ehtiramın, bu günə məsuliyyətin, sabaha mənəvi cavabdehlik hissinin ifadəsidir. Qədirbilən naxçıvanlılar isə quruculuq proseslərində fəal iştirak etməyi özlərinin vətəndaşlıq borcuna çeviriblər və blokada şəraitində belə, böyük həcmdə quruculuq tədbirləri həyata keçirməyi onlara göstərilən qayğı kimi dəyərləndirirlər. Qürurverici odur ki, bunu qədim diyarımıza gələn qonaqlar da görür. Qardaş Türkiyə Respublikasından Naxçıvana gələn həmkarlarımızdan birinin dediklərini xatırlayıram:

– Yollar açılandan bəri 13-14 dəfə Naxçıvana gəlmiş, buradakı həmkarlarımla muxtar respublikanın rayon mərkəzlərini, kənd yaşayış məntəqələrini gəzmiş, insanlarla həmsöhbət olmuşam. Həmişə də bu qardaş məmləkətdən yüksək təəssüratlarla, xoş ovqatla, yenidən buraya gəlmək arzusu ilə ayrılmışam. Belə təəssüratları yaradan amillər isə bir deyil, beş deyil. İlk növbədə, naxçıvanlıların səmimiyyəti, qonaqpərvərliyi, sabaha yüksək inam hisslərinin olması, həm də vətənpərvər sakinlərin doğma torpağı ürəkdən sevməsi, onun gözəlləşməsi üçün mümkün olan hər şeyi etməsini qeyd edə bilərəm. Elə Naxçıvanın bugünkü səviyyəyə gəlib çatması məhz bu amillər hesabına mümkün olub. Yeni tikililər göz oxşayır, hər biri müasir layihə əsasında, yüksək standartlara tam uyğun. Görülən işlər təkcə Naxçıvan şəhərini, rayon mərkəzlərini əhatə etmir. Məsələn, bu gün Şərurun və ya Ordubadın ən ucqar kəndində tikilmiş məktəb binası Naxçıvan şəhərindəkindən seçilmir – nə arxitektura, nə də yaradılmış şərait baxımından.

Buraya gələrkən Naxçıvan Biznes Mərkəzinə də baş çəkirəm. İlbəil artan iqtisadi yüksəlişlə tanış olmaq üçün burada geniş imkanlar yaradılıb. Və inanıram ki, Naxçıvanda bərqərar edilmiş inkişaf modeli, qazanılan uğurlar təkcə belə geosiyasi ərazidə deyil, həm də mərkəzi ərazilərdə yerləşən bir çox məmləkətlər üçün nümunə olacaq. Çox yüksək göstəriciləri ifadə edən rəqəmlər torpağa, Vətənə yurd sevgisinin ifadəsidir.

Həmkarımın dediklərini cari ilin ötən dövrünün uğurları da təsdiq edir. Uğurlar isə reallığın təcəssümüdür: Bu dövrdə ümumi daxili məhsul istehsalının həcmi artıb. Artım hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmində də özünü göstərib. Bunu Prezident də vurğuladı: ***"Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb".***

Bəhs olunan dövrdə muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilən vəsaitin böyük bir hissəsi tikinti-quraşdırma işlərinə sərf olunub. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə tikinti-quruculuq işlərinin həcmi xeyli artıb. Bu həcmdə quruculuq tədbirlərinin həyata keçirilməsi isə, təbii ki, günü-gündən gözəlləşən, müasirləşən Naxçıvanımızın simasına yeni çalarlar gətirir. Yeni tikilərək istifadəyə verilən obyektlərdə iş yerləri yaradılır, məşğulluğun yüksəldilməsi təmin edilir. Bu dövrdə 60-dan çox müxtəlif təyinatlı obyekt tikilib, yenidən qurulub və ya əsaslı təmir olunub, 170-dən çox müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilib. Bu dövrdə yeni kənd və xidmət mərkəzlərinin, təhsil, səhiyyə, mədəniyyət, rabitə, yol və digər infrastrukturlar üçün yeni binaların inşası diqqətdə saxlanılıb. Həyata keçirilən quruculuq tədbirlərində keyfiyyət amilinə xüsusi önəm verilib, yerli tikinti materiallarından istifadə əsas iş prinsipinə çevrilib. O da qeyd olunmalıdır ki, tikilən hər bir obyektdə gələcək perspektiv nəzərə alınıb.

Quruculuq tədbirlərinin tərkib hissəsinə çevrilmiş yol infrastrukturunun tamamilə yenilənməsi istiqamətində görülən işlərə ölkə başçısı da yüksək önəm verdi: ***"Yollar infrastruktur layihələri arasında xüsusi yer tutan layihələrdir. Bu gün artıq yeni çəkilmiş Culfa-Ordubad yolu ilə Ordubad şəhərinə gəldim. Yol şəbəkəsinin qurulması istiqamətində də, demək olar ki, bütün şəhərlərarası layihələr başa çatıb... Bütün şəhərlər artıq magistral yollarla bir-birinə bağlanıbdır və Naxçıvanda olan hər bir insan bunu görür. Yollar çox keyfiyyətlə tikilir, mən bu yolların açılışlarında iştirak etmişəm, bəzi yollar çoxdan istismara verilib, amma buna baxmayaraq, keyfiyyət də yerindədir".***

Bir vaxtlar aqrar region kimi tanınmış muxtar respublikada bu gün artıq rəqabətədavamlı, ixracyönümlü sənaye məhsulları istehsal olunur. Hər il belə məhsullar istehsal edən sahibkarlıq subyektlərinin sayı artır. Belə ki, 2021-ci ilin ilk rübü ərzində regionda dövlət dəstəyi ilə 20 layihə üzrə istehsal və xidmət obyektləri yaradılıb, 41 layihə üzrə işlər davam etdirilib.

Tarixi təsərrüfatçılıq ənənələrinin yaşadılması, yeni elmi əsaslara söykənən təcrübəyə nail olunması kənd təsərrüfatında da böyük uğurlar qazanılmasını təmin edib. Bu sahənin inkişafı ilə bağlı görülən işlərin həcmi böyükdür. Əkiləcək torpaq sahələrinin şumlanmasından başlayaraq istehsal edilən məhsulun bazara çıxarılmasına qədər hərtərəfli qayğı ilə əhatə olunan hər bir torpaq mülkiyyətçisi, sahibkar, torpağın əsl sahibi olan kənd adamı, ailə təsərrüfatları muxtar respublika, nəticə etibarilə, ölkə iqtisadiyyatına öz töhfəsini verməkdədir.

Göstərilən qayğının davamlı xarakter almasının göstəricisidir ki, aprel ayının 22-də Şahbuz rayonunun Şahbuzkənd, Külüs və Keçili yaşayış məntəqələrinin 340 hektar torpaq sahəsini əkin dövriyyəsinə qatmaq üçün elektrik sistemləri yenilənib. Göründüyü kimi, bu heç də kiçik rəqəm deyil.

Əkinçilikdə yüksək məhsuldarlığa nail olmaq üçün son illərdə muxtar respublikanın müxtəlif ünvanlarında qapalı suvarma şəbəkəsinin tətbiqi istiqamətində görülən işlər də davam etdirilir. Bu, su itkisinin qarşısını alır, torpağın məhsuldarlığına müsbət təsir göstərir. Digər amillər də çoxdur. Kənd təsərrüfatı təyinatlı layihələrin reallaşdırılması öndədir. Un dəyirmanlarının tikintisi, mövcud dəyirmanların təmiri, soyuducu anbarların inşası, heyvandarlıq, arıçılıq sahələrinin yaradılması xüsusi qeyd olunmalıdır. Bütün sadaladıqlarımız və sadalamadıqlarımız həm də sənaye sahəsi üçün xammal mənbəyi olan kənd təsərrüfatında xeyli uğurlar qazanılmasını təmin edib.

İlin ötən dövrü ərzində davamlı qayğı kənd təsərrüfatının dinamik inkişafına müsbət təsirini göstərib. Görülən işlərin davamı olaraq muxtar respublikada kənd təsərrüfatı məhsullarının ixrac potensialının artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı" təsdiq edilmişdir. Bundan əlavə, cari ilin ilk rübündə kənd təsərrüfatı sahəsi ilə məşğul olan təsərrüfat subyektlərinə, ümumilikdə, 4 milyon 156 min 800 manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 15,7 faiz çoxdur.

Həm sənaye, həm də aqrar sahədə qazanılan uğurlarda bir amil də xüsusi vurğulanmalıdır. Bu, təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanlarının yaxşılaşdırılması tədbirlərinin diqqətdə saxlanılmasıdır. Adıçəkilən dövrdə statistik rəqəmlər artan dinamika ilə özünü göstərir. Bu zaman kəsiyində muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 48 milyon 368 min 200 manat kredit verilmişdir. Verilmiş kreditlərin 8 milyon 829 min 600 manatı və yaxud 18,3 faizi qısamüddətli, 39 milyon 538 min 600 manatı və yaxud 81,7 faizi uzunmüddətli kreditlər olmuşdur.

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur. Bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

Bu gün həyatımızı yeni texnologiyalarsız təsəvvür etmək mümkün deyil. İllərdir ki, muxtar respublikada bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlər bu sahənin müasir standartlar səviyyəsinə yüksəlməsini təmin edib. Telefon xətlərinin çəkilişi diqqət mərkəzində saxlanılıb. İnternet istifadəçilərinin sayı artıb.

İnkişaf dinamikasını əks etdirən statistik rəqəmlər bununla bitmir. Sadəcə, onları bir qəzet yazısına sığışdırmaq mümkün deyil. Ona görə də yazını ölkə başçısının bu inkişafı dəqiq ifadə edən fikri ilə bitiririk: ***"Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün ulu öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax bu inkişafda təcəssüm etdirir, bütün məsələlər öz həllini tapır – təhlükəsizlik, sosial-iqtisadi inkişaf, sənaye, kənd təsərrüfatı, infrastruktur. Biz bundan sonra da bu yolla gedəcəyik ki, ölkəmizin hər bir yerində, əlbəttə ki, bizim tarixi diyarımız olan Naxçıvan Muxtar Respublikasında işlər həmişə yüksək səviyyədə görülsün, insanlar daha da yaxşı yaşasınlar və ölkəmiz daha da güclənsin".***

**Muxtar MƏMMƏDOV**



## Naxçıvan dünən

### Texnika saz olmasa...

Kəndlinin işi heç vaxt bitib-tükənmir. O, indi növbəti qayğılarla yaşayır. Yaz-tarla işlərinə hazırlıq görür. Yazda səpinin, becərmə və yem tədarükünün uğurlu keçməsi üçün texnikanın sazlığı mühüm şərtdir. Ehtiyat hissələrinin qəhətə çıxdığı bir vaxtda maşın və mexanizmləri vaxtında təmir edib sazlamaq o qədər də asan deyil. Vaxt isə gözləmir. Bolluq yaratmaq, qıtlığın, bahalığın qarşısını almaq üçün kəndli əkib-becərməli, istehsalı genişləndirməlidir. Lakin yalın əllə yüz hektarlarla sahədə məhsul yetişdirmək olmaz. Bu mənada, “texnika kəndlinin sağ əlidir!” devizi bu gün də öz əhəmiyyətini itirməmişdir. Təəssüf ki, texnikanı almaq, onu daim saz vəziyyətdə saxlamaq ildən-ilə çətinləşir. Sözdə hamı kəndə köməkdən danışır, ölkədə yaranmış qıtlıqda kəndlini günahlandırır. Lakin əməli işdə ona arxa durub kömək edən isə olduqca azdır. Hamıya məlumdur ki, sənaye məhsullarının qiyməti get-gedə bahalaşır. Bu da kənd təsərrüfatı istehsalının səmərəsinin azalmasına, bu sahədə çalışanların güzəranının çətinləşməsinə səbəb olur. Ancaq ruhdan düşüb geri çəkilmək, süfrələri boş qoymaq da olmaz... İşimizə mane olan cəhətlər də var. Ehtiyat hissələrini vaxtında ala bilməməyimiz təmir işlərini ləngidir. Bəzi ehtiyat hissələri isə heç tapılmır.

**“Şərq qapısı”**
***14 mart 1991-ci il***

*30 il öncə qələmə alınan bu məqalə tarix etibarilə bizə necə uzaqdırsa, elə orada adıçəkilən problemlər də o qədər yadlaşıb. Ötən dövr ərzində yuxarıda sadalanan bütün problemlər həll edilib. Yol düzgün seçiləndə uğur qazanmaq da çətin olmur. İllər öncə nə əkəndə, nə biçəndə, nə də ki suvaranda texnika tapa bilən əkinçinin, kəndlinin zəhməti boşa gedir, əli torpaqdan soyuyurdu. Artıq bütün bu problemlər də öz həllini tapıb. Uzun illər aparılan islahatlar nəticəsində kəndlinin əməyini yüngülləşdirmək üçün dövlət tərəfindən bir çox tədbirlər həyata keçirilib, müasir texnikalar alınaraq lizinq yolu ilə onlara verilib.*

## və bu gün

### Kəndlinin əməyini yüngülləşdirmək üçün həyata keçirilən tədbirlər öz bəhrəsini verir

Aparılan məqsədyönlü siyasət ölkəmizdə, o cümlədən muxtar respublikamızda bir çox nailiyyətlərə imza atılmasına yol açıb. İndi kim istəsə, çox asanlıqla və sərfəli qiymətə texnika alır, pulunu isə hissə-hissə ödəyir. Bu da əkinlərin optimal müddətdə aqrotexniki qaydalara uyğun aparılmasına, məhsulun itkisiz və vaxtında yığılmasına, məhsuldarlığın yüksəldilməsinə, əl əməyinin yüngülləşdirilməsinə və məhsul istehsalına çəkilən xərclərin azalmasına imkan verir.

Ali Məclisin Sədri demişdir: ***“Ölkəmizdə iqtisadiyyatın əsas qollarından biri olan kənd təsərrüfatının inkişafı diqqət mərkəzindədir. Ölkə Prezidentinin müvafiq sərəncamları ilə kənd təsərrüfatının bütün sahələri üzrə güzəştlər tətbiq olunmuş, aqrar sahədə kompleks tədbirlər həyata keçirilmişdir. Bu gün təqdimatı keçirilən kənd təsərrüfatı texnikaları da ölkəmizdə kənd təsərrüfatının və bu sahədə sahibkarlığın inkişafına dəstək, eyni zamanda ərzaq təhlükəsizliyinin təmin olunmasına töhfədir. O ölkədə inkişaf təmin olunmuş hesab edilir ki, həmin ölkənin inkişafı kənd təsərrüfatının üzərində qurulur. Kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması bütün dövrlər üçün vacibdir. Bütün bunlar nəzərə alınaraq muxtar respublikada da kənd təsərrüfatının inkişafına böyük diqqət və qayğı göstərilir”.***



Bütün dövrlərdə kənd təsərrüfatının inkişaf etdirilməsi prioritet məsələlərdən sayılıb. Çünki bu sahənin inkişafı ərzaq məhsulları ilə etibarlı təminata zəmin yaradaraq strateji önəm kəsb edir. Yurdumuzun əlverişli iqlim şəraiti, bərəkətli, münbit torpaqları və ən əsası, kənd təsərrüfatının inkişafına hərtərəfli dövlət qayğısının bariz nümunəsidir ki, torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə kreditlər və müasir kənd təsərrüfatı texnikaları verilir, aqrotexniki xidmət sarıdan köməkliklər edilməsi də bu sahənin inkişafına öz müsbət təsirini göstərib. Bütün bunlar da mövcud torpaq potensialından səmərəli istifadəyə, həmçinin əkin dövriyyəsinin genişləndirilməsinə hərtərəfli şərait yaradıb. Bu, bir həqiqətdir ki, əkin-biçin kampaniyasının mütəşəkkil keçirilməsində, yetişdirilən məhsulun vaxtında və itkisiz toplanmasında müasir kənd təsərrüfatı texnikalarından səmərəli istifadə mühüm əhəmiyyət daşıyır. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 28 yanvar tarixli Sərəncamı ilə yaradılmış “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti muxtar respublikada kənd təsərrüfatının inkişafında böyük rol oynayır. Cəmiyyətin əsas fəaliyyət istiqaməti muxtar respublikada kənd təsərrüfatı texnikası çatışmazlığının aradan qaldırılması, fermerlərə güzəştli şərtlərlə texnika və avadanlıqların lizinq yolu ilə verilməsini, habelə mineral gübrələrin, damazlıq mal-qaranın, məhsuldar toxum sortlarının alınaraq uyğun qiymətlərlə sahibkarlara satışını təşkil etməkdən ibarətdir. Ötən müddətdə bu sahədə mühüm irəliləyişlərə nail olunub, fermerlər göstərilən dövlət qayğısından lazımınca yararlanıblar. Eyni zamanda göstərilən aqrolizinq xidmətləri də ildən-ilə öz keyfiyyətini yüksəldərək bu həllivacib sahəyə öz töhfəsini verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2015-ci il aprelin 6-da muxtar respublikada “Kənd təsərrüfatı ili”ndə qarşıda duran vəzifələrlə bağlı müşavirədə demişdir: ***“…Hazırda ölkəmizdə kənd təsərrüfatının inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Əvvəllər kənd təsərrüfatı texnikaları torpaq mülkiyyətçilərinə və fermerlərə 10 il müddətinə lizinqə verilir, mineral gübrələr isə 50 faiz güzəştlə satılırdı. Lakin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatının inkişafının stimullaşdırılması məqsədilə imzaladığı 2014-cü il 16 aprel tarixli Fərmanına əsasən kənd təsərrüfatı texnikaları lizinqə verilərkən dəyərinin 20 faizi ödənildikdə dövlət büdcəsi hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilməsi, eləcə də mineral gübrələrin 70 faiz güzəştlə satışının həyata keçirilməsi qərara alınmışdır. Qəbul edilən bu qərarlar yerlərdə aqrolizinq xidmətləri tərəfindən həyata keçirilir. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti 2005-ci ilin yanvar ayından fəaliyyət göstərir. Ötən dövrdə cəmiyyətin muxtar respublikanın rayonlarında bazaları yaradılaraq lazımi texnika və avadanlıqlarla təchiz olunmuş, kollektiv üzərinə düşən vəzifələri yerinə yetirmişdir”.***



*“Təəssüf ki, texnikanı almaq, onu daim saz vəziyyətdə saxlamaq ildən-ilə çətinləşir. Sözdə hamı kəndə köməkdən danışır, ölkədə yaranmış qıtlıqda kəndlini günahlandırır. Lakin əməli işdə ona arxa durub kömək edən isə olduqca azdır”.* Məqalədə diqqətə çatdırılan bu problemin də aradan qaldırıldığını cəmiyyətin yarandığı gündən ötən dövr ərzində fəaliyyətinə nəzər salsaq, aydın şəkildə görərik. Belə ki, əgər 2006-cı ildə muxtar respublikaya 82 kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqlar gətirilmişdirsə, 2019-cu ildə gətirilən yeni texnikaların sayı 364-ə, ümumilikdə, 2739 -a çatdırılmışdır. Bu texnika və texnoloji avadanlıqların ardıcıl olaraq hər il fermerlərə güzəştli şərtlərlə satışı təşkil edilmiş, 2020-ci ilin yanvarınadək 2111-i lizinq, 166-sı isə nağd və köçürmə yolu ilə hüquqi və fiziki şəxslərə satılmışdır. Ümumilikdə, muxtar respublika üzrə nağd, köçürmə və lizinq yolu ilə satılan texnika və texnoloji avadanlıqların sayı 2277 olmuşdur.



2020-2021-ci illərdə sahibkarların texnika təminatına dəstək məqsədilə 366 təsərrüfat texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilmişdir. Müasir traktorlar, taxılsəpənlər, kartof əkini, becərilməsi və yığımında istifadə olunan texnikalar, toxum istehsalı avadanlıqları, kotan, ekskavator-buldozerlər, suvarma sistemləri və digər texnikalar kənd təsərrüfatı işlərində əl əməyini xeyli yüngülləşdirməklə məhsulun itkisiz yığımına və tədarükünə imkan verib. Texnikalar alınarkən torpaq mülkiyyətçiləri, ailə təsərrüfatları və fermerlərin sifarişlərinin nəzərə alınması isə məhsul istehsalının artırılmasında başlıca şərtdir. Bu ilin ötən dövründə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən yeni alınmış texnikalardan 106-sı, ümumilikdə isə 2020-2021-ci illərdə 368 texnika və texnoloji avadanlıq lizinqə verilmişdir. Bununla yanaşı, bu il Türkiyə Respublikasından bələdiyyələr üçün 15 qoşqu da alınmışdır.

“Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətindən aldığımız məlumata görə, son illər muxtar respublikaya 3282 texnika və texnoloji avadanlıq alınıb gətirilmiş, onlardan 2632-si lizinq yolu ilə sahibkarlara verilmişdir.

Onu da qeyd etmək yerinə düşər ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu sahənin inkişafı ilə bağlı imzaladığı sərəncamların icrası muxtar respublikada kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi və ixrac imkanlarının artırılmasına səbəb olur. Torpaq mülkiyyətçiləri və fermerlərin, eləcə də ailə təsərrüfatçılarının müasir kənd təsərrüfatı texnikaları ilə təmin olunması məhsul istehsalını və bu sahəyə marağı artırır, əl əməyini yüngülləşdirir. Bu baxımdan Ali Məclis Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı” da mühüm əhəmiyyət kəsb edir.



Fəaliyyətə başlamasından ötən 16 il ərzində “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti böyük bir inkişaf yolu keçmişdir. Vurğulamaq lazımdır ki, ötən dövrdə cəmiyyətin rayon bazaları da yaradılmış və bu bazalarda inzibati binalar, anbar, texniki park və təmir sexləri tikilib istifadəyə verilmiş, maddi-texniki baza gücləndirilmiş, gətirilmiş texnika və texnoloji avadanlıqların əkin sahələrinə uyğun bölgüsü aparılmışdır.

Məqalədə qeyd edilən *“İşimizə mane olan cəhətlər də var. Ehtiyat hissələrini vaxtında ala bilməməyimiz təmir işlərini ləngidir. Bəzi ehtiyat hissələri isə heç tapılmır”* gileyi də dövlət qayğısı sayəsində öz həllini tapıb. Belə ki, lizinq yolu ilə satılan texnikaların ehtiyat hissələrinin alınması da cəmiyyət tərəfindən diqqət mərkəzində saxlanılır. Hazırda cəmiyyətə məxsus anbarlarda müxtəlif kənd təsərrüfatı texnikalarının ehtiyat hissələri vardır. Məhz torpaq mülkiyyətçilərinin əlindən tutan belə müasir texnika və avadanlıqlar əkin sahələrində mütərəqqi aqrotexniki qaydaların tətbiqinə imkan verir. Həmçinin cəmiyyətin bazalarında torpaq mülkiyyətçilərinə yardım məqsədilə texniki servis xidmətləri də göstərilir.

Torpaq mülkiyyətçilərinə mühüm dəstəklərdən biri də əkin sahələrinin mineral gübrələrə olan ehtiyacının ödənilməsidir. Ölkə başçısının müvafiq fərmanı ilə mineral gübrələrin fermerlərə 70 faiz güzəştlə satışı təmin olunmuşdur.

Yaradılmış şərait muxtar respublikada yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsinə, meliorativ tədbirlərin həcminin genişləndirilməsinə, yeni fermer təsərrüfatlarının və kənd təsərrüfatı ixtisaslı istehsal müəssisələrinin yaradılmasına imkan verir.

Onu da qeyd etmək yerinə düşər ki, muxtar respublikada fəaliyyət göstərən bələdiyyələr dövlətin diqqət və qayğısı ilə tam əhatə olunub. Muxtar respublikamızda bir neçə ildir ki, təkcə kənd təsərrüfatında işlətmək üçün yox, həm də ekoloji tarazlığı qorumaq, ətraf mühitin təmiz saxlanılması üçün, bələdiyyələrin fəaliyyətinin daha da gücləndirilməsi məqsədilə bir çox tədbirlər həyata keçirilir. Bələdiyyələr yeni texnikalarla təmin edilir. Son illərdə 46 kommunal təyinatlı nəqliyyat vasitəsi, 2 xidməti minik avtomobili, 1360 məişət tullantısı konteyneri bələdiyyələrin və kommunal müəssisələrin istifadəsinə verilmişdir ki, bu da onların daha operativ işləmələrinə şərait yaratmışdır. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü ərəfəsində, faşizm üzərində qələbənin 76-cı ildönümü günündə bələdiyyələrə 15 traktor və 15 qoşqu təqdim olunub. Həmin tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Bələdiyyələrin fəaliyyəti ümummilli liderimizin onlara verdiyi qiymətə uyğun təşkil edilməlidir. 2017-ci ildən etibarən bələdiyyələrə kommunal xidmətlər göstərmək səlahiyyəti verilmişdir. Muxtar respublikada həmin xidmətləri həyata keçirmələri üçün artıq ikinci dəfədir ki, bələdiyyələrə texnikalar təqdim olunur. İlkin olaraq 10, bu gün isə 15 texnika verilir. Muxtar respublika bələdiyyələrinin fəaliyyəti nəticəsində toplanan vəsait və dövlətin ayırdığı subsidiya hesabına texnikalar alınmışdır. Bu isə birgə fəaliyyətin nəticəsidir. Texnika işin 50 faizi deməkdir. Bu texnikalar bələdiyyələrin fəaliyyətini asanlaşdıracaq, qarşıya qoyulan tapşırıqlar vaxtında icra olunacaqdır. Bu gün ölkəmizin bütün ərazilərində yenidənqurma işləri aparılır, torpaqlar istifadə üçün vətəndaşlara verilir. Torpaqlar bələdiyyə, dövlət və şəxsi mülkiyyət olaraq formalaşıb. Buna görə də bələdiyyə mülkiyyətində olan torpaqlardan səmərəli istifadə olunmalı, əkilməli, icarə haqları və müqavilələri düzgün bağlanılmalıdır”.***

Bu gün 90-cı illərin əvvəllərində yaşadığımız çətinliklər təkcə tarix etibarilə bizdən uzaqlaşmamış, həm də bütün bu problemlər öz həllini tapmışdır. Həmin günlərin çətinlikləri haqqında indi söhbət düşəndə ulu öndərimizin Naxçıvana gəlişindən sonrakı inkişafı minnətdarlıq hissi ilə göz önünə gətiririk.

Diqqət və qayğının bəhrəsi olaraq şəhərlərdən ucqar kəndlərimizə qədər fasiləsiz elektrik enerjisi, mavi yanacaq verilib, yollar abadlaşdırılıb, şəhərdəki infrastruktur obyektlərindən heç də seçilməyən binalar inşa edilib. Yanacaq olmaması səbəbindən payız aylarında balta səsləri gələn bağlar yenidən dirçəldilib, əkin sahələrini müasir texnikaların səsləri bürüyüb. Texnika çatışmaması səbəbindən əkilməyən, biçilməyən əkin yerləri sarı kəhrəba dənizinə dönüb. Təknələrimiz bərəkətli torpaqlarımızın məhsulları ilə dolub daşır. Bütün bunların nəticəsidir ki, uzun illər öncə bir tikə çörək üçün qonşu ölkələrə üz tutan kənd sakinləri öz yurd-yuvasına qayıdıb alın tərini torpağa qatır və bilir ki, torpağı ovuclayan qızıl ovuclayır. Onları torpağa, elə bağlayan əsas səbəb isə bitib-tükənməyən Vətən sevgisi, dövlət qayğısıdır.

**Ramiyyə ƏKBƏROVA**

## Magistrantların XII regional elmi konfransı keçirilib



***Naxçıvan Dövlət Universitetində Naxçıvan Müəllimlər İnstitutu, "Naxçıvan" Universiteti ilə birgə magistrantlarının XII regional elmi konfransı keçirilib.***

Tədbiri giriş sözü ilə universitetin rektoru, dosent Elbrus İsayev açıb. Elmə, təhsilə göstərilən diqqət və qayğıdan bəhrələnərək ali təhsil ocağında magistr hazırlığı sahəsində görülən işlərdən bəhs edən rektor diqqətə çatdırıb ki, universitetdə növbəti tədris ilindən magistr dissertasiyalarının xüsusi proqram vasitəsilə yoxlanılması həyata keçiriləcək. Bildirilib ki, hazırda universitetin magistratura təhsil səviyyəsində I kurslarda 64 ixtisaslaşma üzrə 204 nəfər, II kurslarda isə 47 ixtisaslaşma üzrə 144 magistrant təhsil alır. Qeyd olunub ki, bu il keçirilən magistraturaya qəbulun nəticələrinə görə, bakalavr mərhələsini bitirən məzunların 187 nəfəri imtahanda iştirak edib, bunlardan 158 nəfəri müsabiqə şərtlərini ödəyib. Rektor Ali Məclis Sədrinin sərəncamı ilə universitetdə yaradılacaq Texnologiyalar Parkının da magistraturada təhsil alan tələbələrin öz bacarıqlarını nümayiş etdirmələri baxımından mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev ali təhsil sistemində magistr pilləsinin əhəmiyyətindən danışaraq bildirib ki, əvvəlki dövrlərlə müqayisədə müasir tədris proqramına uyğun keçirilən dərslər tələbələrin ixtisaslı kadr kimi yetişməsinə xidmət edir. Qeyd olunub ki, muxtar respublikanın dərindən tədqiq edilərək öyrənilməsi məqsədilə yaradılan akademiyada elmi-tədqiqat işlərinin həyata keçirilməsi uğurla davam etdirilir. İsmayıl Hacıyev elmi-tədqiqat işlərinin daha da geniş vüsət alması məqsədilə magistratura təhsilini başa vuran məzunların akademiyada fəaliyyət göstərməyi üçün yaradılan şəraitdən danışıb.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov muxtar respublikada elmə, təhsilə göstərilən dövlət qayğısından bəhs edərək bildirib ki, konfransların keçirilməsi tələbələrin elmi-tədqiqat işlərinin qiymətləndirilməsi baxımından xüsusi rola malikdir. Bu gün dünyanın nüfuzlu platformalarında tarixi faktlara əsaslanan məqalələrin yer alması bu sahədə ixtisaslı kadrlara olan tələbatı daha da artırır. Azad Novruzov rəhbərlik etdiyi ali təhsil ocağında 5 pedaqoji ixtisas üzrə magistr hazırlığının aparılmasından danışıb.

"Naxçıvan" Universitetinin rektoru Nurlana Əliyeva bildirib ki, təhsilin və elmin qarşısında duran əsas vəzifə yüksəkixtisaslı kadrların hazırlanmasıdır. Qeyd edilib ki, universitetdə 8 ixtisas üzrə magistr hazırlığı həyata keçirilir.

Sonra Naxçıvan Dövlət Universitetinin magistrantı Lalə Rzayevanın "Magistr təhsilinin tarixi və müasir dövrdə əhəmiyyəti" mövzusunda çıxışı dinlənilib. Sonda Naxçıvan Dövlət Universitetində I kurs magistrantları tərəfindən musiqi nömrələri təqdim edilib. Qeyd edək ki, magistrantların XII regional konfransında muxtar respublika ali təhsil ocaqlarının, Azərbaycan İqtisad Universitetinin, Azərbaycan Universitetinin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin və AMEA Botanika İnstitutunun magistrantları 12 bölmədə 208 məqalə ilə məruzə ediblər.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü qeyd olunub

1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində xüsusi qayğıya ehtiyacı olan uşaqlarla keçirilən görüşdə Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək muxtar respublikada uşaqlara göstərilən hərtərəfli diqqət və qayğıdan bəhs ediblər. Çıxışlarda muxtar respublikada yaşayan bütün kateqoriyadan olan uşaqlara, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqlara diqqət və qayğı göstərilir. Onların təhsili, sağlamlıqlarının qorunması, istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının və tərbiyəsinin düzgün təşkili, cəmiyyətin ictimai-mədəni həyatındakı iştiraklarını təmin etmək məqsədilə həyata keçirilən tədbirlərdən bəhs olunub. Çıxış edənlər uşaqları bayram münasibətilə təbrik edib, onlara təhsillərində, gələcək həyatlarında uğurlar arzulayıblar.



Naxçıvan Muxtar Respublikasının Səhiyyə nazirinin müavini Samrat Gəncəyeva valideynlər adından çıxış edərək muxtar respublikada uşaqlara yaradılan hərtərəfli şəraitə, onlara göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonda Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzindən 6, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbindən 9 nəfər olmaqla, ümumilikdə, 15 sağlamlıq imkanları məhdud uşağa hədiyyə və şirniyyat bağlamaları təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Gənclər Fondunun və "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının birgə təşkilatçılığı, sosial könüllülərin iştirakı ilə sağlamlıq imkanları məhdud uşaqlar üçün əyləncəli tədbir təşkil olunub. Tədbirdə çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev uşaqları əlamətdar gün münasibətilə təbrik edərək vurğulayıblar ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda uşaqlarla iş dövlətin daim diqqət mərkəzindədir. Bu gün muxtar respublikamızda sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum olmuş uşaqların cəmiyyətə inteqrasiyası üçün mühüm tədbirlər reallaşdırılır. Bu istiqamətdə sosial könüllülərin rolu yüksək qiymətləndirilmişdir.

Çay süfrəsi ətrafında keçirilən tədbirin bədii hissəsində sağlamlıq imkanları məhdud istedadlı uşaqlardan ibarət musiqi qrupunun və fiziki imkanları məhdud şəxslərdən ibarət "İnam" musiqi qrupunun ifaları dinlənilib, sosial könüllülər və sağlamlıq imkanları məhdud istedadlı uşaqlar tərəfindən birgə hazırlanmış rəqs nömrələri və səhnəciklər nümayiş olunub. Tədbir iştirakçılar arasında müxtəlif əyləncəli oyunlarla və "Əyləncə Adası"nda gəzinti ilə davam etdirilib. Tədbirin sonunda fərqlənən iştirakçılar və sosial könüllülər qiymətli hədiyyələr və fəxri fərmanlarla təltif olunublar.



Qeyd edək ki, tədbirdə istedadlı sağlamlıq imkanları məhdud uşaqlar tərəfindən hazırlanmış əl işlərinin sərgisi də təşkil olunub.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Təhsil Nazirliyi və Ordubad Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Ordubad şəhərində fəaliyyət göstərən Məhəmməd Füzuli adına Ordubad şəhər tam orta internat məktəbində də tədbir keçirilib. Tədbirdə hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, tək valideyn himayəsində yaşayan və aztəminatlı ailələrdən olan 41 uşağa hədiyyə və şirniyyat bağlamaları təqdim edilib.

**Xəbərlər şöbəsi**

## *"Aşıq Ələsgər – 200"* mövzusunda elmi konfrans

"Naxçıvan" Universitetində keçirilən konfransı giriş sözü ilə açan universitetin rektoru, dosent Nurlana Əliyeva qeyd edib ki, Aşıq Ələsgər Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etmişdir. Sənətkarın doğma təbiətə məhəbbət və vətənpərvərlik hisslərini vəhdətdə aşılayan, ana dilimizin saflığını və hüdudsuz ifadə imkanlarını özündə cəmləşdirən dərin koloritli yaradıcılığı Azərbaycan ədəbiyyatının parlaq səhifələrindəndir. Azərbaycan aşıq sənətinin ümumbəşəri dəyərlər sırasında qorunan dünya qeyri-maddi mədəni irs nümunələri siyahısına salınması həm də Aşıq Ələsgər sənətinə ehtiramın təzahürüdür.

Vurğulanıb ki, Aşıq Ələsgərin zəngin poetik irsinin geniş tədqiqi, nəşri və təbliğinin mühüm mərhələsi mədəni-mənəvi dəyərlərimizin bütün daşıyıcılarına həmişə xüsusi diqqətlə yanaşan ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Rektor çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd olunması haqqında" 2021-ci il 18 fevral tarixli Sərəncamının, bu yubileyin Naxçıvanda da geniş şəkildə qeyd olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun sərəncamı ilə Tədbirlər Planının təsdiq edilməsinin görkəmli söz ustadının ədəbi irsinin təbliği baxımından əhəmiyyətindən bəhs edib.

Konfransda professor Sədaqət Həsənova "Aşıq Ələsgərin dil- üslub xüsusiyyətləri", dosent Əli Həşimlinin "Aşıq Ələsgər və yazılı ədəbiyyatda folklor ənənələri", dosent Qənirə Əsgərovanın "Aşıq Ələsgər yaradıcılığında frazeoloji birləşmələrin rolu", dosent Arifə Zeynalovanın "Söz sərrafı Aşıq Ələsgərin leksikası" mövzularında məruzələri dinlənilib. Məruzəçilər Aşıq Ələsgərin bədahətən dediyi gəraylı, qoşma, təcnis, deyişmə, ustadnamə, müxəmməs və digər janrlarda olan əsərlərindən ibarət zəngin bədii irsini elmi-ədəbi təhlil ediblər. Konfransın bədii hissəsində aşığın yaradıcılığından seçilən nümunələr səsləndirilib.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində 1 iyun–Uşaqları Beynəlxalq Müdafiə Gününə həsr olunmuş muxtar respublika məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvlərinin əl işlərindən ibarət sərgi-satış təşkil edilib.***

## Naxçıvanda ilk dəfə dərnək üzvlərinin əl işlərinin sərgi-satışı təşkil edilib



Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov tədbirdə çıxış edərək vurğulayıb ki, ölkəmizdə gələcəyin qurucuları olan uşaqların hərtərəfli inkişaf etmiş bir şəxsiyyət kimi böyüməsi üçün dövlət qayğısı və diqqət yüksək səviyyədədir. Bunu muxtar respublikamızın timsalında da aydın görmək olar. Uşaqların milli dəyərlər əsasında tərbiyəsi, sosial ehtiyaclarının hərtərəfli təmini, sağlam mühitdə böyümələri, istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtlarının və tərbiyəsinin düzgün təşkili kimi məsələlər daim diqqət mərkəzində saxlanılır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı əsasında istedadlı şagirdləri üzə çıxarmaq, onlardakı tədqiqatçılıq qabiliyyətini inkişaf etdirmək üçün müxtəlif metodlar, innovativ layihələr tətbiq olunur, tədbirlər, bilik və yaradıcılıq müsabiqələri, sərgilər, idman yarışları keçirilir. Bütün bunların nəticəsidir ki, hər ötən il ümumtəhsil məktəblərinin şagirdləri istər qəbul imtahanlarında, istərsə də muxtar respublika, ölkə və beynəlxalq səviyyəli müsabiqə və yarışlarda yüksək nailiyyətlər əldə edir, istedadlı uşaqların adları Naxçıvan Muxtar Respublikası gənc istedadlarının "Qızıl kitabı"na yazılır, onlar Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülürlər.

Bildirilib ki, Ali Məclis Sədrinin tapşırığı əsasında 2019-2020-ci tədris ilindən başlayaraq məktəbdənkənar təhsil müəssisələrində innovativ dərnəklərin, 2020-2021-ci tədris ilindən isə ümumtəhsil məktəblərində STEAM təlim metodunun tətbiqinə başlanılıb. Ötən müddət ərzində məktəbdənkənar təhsil müəssisələrində 60-dan çox innovativ dərnək, 15 məktəb və məktəbdənkənar təhsil müəssisəsində STEAM kabinələri, Heydər Əliyev adına tam orta məktəbdə STEAM Tədris Mərkəzi yaradılıb. Yaradılan innovativ dərnəklərə bütün kateqoriyalardan, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların cəlbi də diqqətdə saxlanılıb. Məktəbdənkənar təhsil müəssisələrində müxtəlif profilli dərnəklərə sağlamlıq imkanları məhdud olan 169 uşaq cəlb edilib.

Təhsil naziri muxtar respublikada uşaqlara göstərdiyi diqqət və qayğıya, onların təhsili üçün yaratdığı şəraitə görə təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib, bütün uşaqları 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə təbrik edib.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin sektor müdiri Murad Babayev sərgi haqqında geniş məlumat verib. Bildirib ki, sərgi-satışda 100 rəsm, 31 ebru sənəti, 38 xalçaçılıq, 287 toxuculuq, 50 bədii tikmə, 32 dulusçuluq, 137 heykəltəraşlıq, 40 ağac üzərində oyma, 46 ağac üzərində yandırma, 45 metal üzərində bədii döymə, 166 bijuteriya, 72 dekorativ iş olmaqla, müxtəlif janrlarda 1109 yaradıcılıq işi nümayiş etdirilir.

Qeyd olunub ki, ümumilikdə, 348 şagirdin yaradıcılıq nümunələri sərgi-satışa çıxarılıb. Bunlardan 750-si dekorativ, 359-u isə təsviri sənət işləridir.

Sonra milli üslubda hazırlanaraq sərgi-satışa çıxarılan əl işlərinə baxış olub. Nümayiş etdirilən işlər tədbir iştirakçılarının böyük marağına səbəb olub.

Qeyd edək ki, sərgi-satış 5 gün davam edəcək və yekun tədbirdə fəal iştirak edən məktəbdənkənar təhsil müəssisələri, dərnək rəhbərləri və şagirdlər təltif olunacaq.

## STEAM Tədris Mərkəzində növbəti təlim



*Son illərdə dünya təhsil sistemində ən mühüm trendlərdən biri kimi aktuallıq qazanan STEAM təlim metodu bu gün muxtar respublikanın təhsil müəssisələrində uğurla tətbiq edilir.*

Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi STEAM təlim metodunun tətbiqi ilə əlaqədar görülən silsilə tədbirlər çərçivəsində müəllim-mütəxəssislərin hazırlanmasında yerli mütəxəssislərlə yanaşı, beynəlxalq təcrübəyə malik peşəkar heyət tərəfindən də təlimlərin keçirilməsini diqqətdə saxlayır. Bu məqsədlə dünən Heydər Əliyev adına tam orta məktəbdə yaradılmış STEAM Tədris Mərkəzində beynəlxalq təlimlərdə iştirak etmiş "Hədəf" Şirkətlər Qrupunun direktoru, dosent Şamil Sadıq və "Hədəf" Şirkətlər Qrupunun icraçı direktoru İbrahim Qasımov tərəfindən müəllimlərə "STEAM və müasir təlim yanaşmaları" mövzusunda təlim keçirilib.

Təlimdə müəllimlərə STEAM metodikası, fənlərarası əlaqə, layihə əsaslı öyrənmə, innovativ təlim metodikaları, microbit vasitəsilə kodlama, müxtəlif mühəndis-dizayn həllərinin prototipləşdirilməsi və digər məsələlərlə bağlı praktik biliklər verilib, müəllimlərə STEAM dərslərində şagirdləri yeniliklərə istiqamətləndirmələri, həmçinin şagirdlər tərəfindən layihə məhsullarının hazırlanması zamanı effektiv üsullar və innovativ yanaşmalarla bağlı metodlardan nümunələr göstərilib, müəllimləri maraqlandıran suallar cavablandırılıb. Təlimçilər tərəfindən STEAM Tədris Mərkəzinə ibtidai siniflər üçün kodlaşdırma sistemi avadanlığı və maşın robot hədiyyə olunub.

STEAM dərslərini tədris edəcək müəllimləri yetişdirmək, onları bu istiqamətdə peşəkar inkişafa sövq etmək məqsədilə Təhsil Nazirliyi tərəfindən gələcəkdə də belə təlimlərin davam etdirilməsi planlaşdırılıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## O xanadan bu xanaya süzülən düşüncə!

### Naxçıvan şəhərində keçirilən şahmat üzrə Azərbaycan çempionatının gərgin mübarizə dolu anlarından yaranan təəssüratlar, bənzətmələr



64 xanalıq, olduqca maraqlı, sirli və qədim... Savaş meydanının oyun taxtasındakı rəmzi təsviri, döyüş təyinatının fiqurlarla təsnifatı, itirmə qorxusundan qazanmaq uğrunda mücadiləyədək dəyişən ab-hava, xanalarındakı min bir strategiya ilə beynimizə və qəlbimizə nüfuz edən əsrarəngiz idman növü – ŞAHMAT və oyun fəlsəfəsindən bənzətmələr.

*O xanadan bu xanaya ilk gediş və ya "debüt" (oyunun ilk mərhələsi)*

Hərdən Naxçıvanımızın düşdüyü çətin tarixi şərait və qət etdiyi məşəqqətli uğur yolunu analiz etməyə çalışanda nədənsə, şahmat taxtasındakı müxtəlif vəziyyətlər ağlıma gəlir. Eynən oyunda olduğu kimi, zaman keçdikcə dəyişən tablo və bu minvalla ərsəyə gələn fərqli istiqamətlər Nəqşicahan gözəlliyini dövrümüzə qədər daşıyıb. Şahmat oynayanlar bilir ki, adətən, piyadalarla atılan ilk gediş ənənəvi olur – oyunun əvvəlində dinamika yaratsa da, kəşfiyyat xarakteri daşıdığından sonrakı mərhələlər daha maraqlı, daha həyəcanverici və drammatik olur. Düşünürəm ki, tarixi minilliklərə dayanan diyarımızdakı ilk rəmzi gedişi "ümumdünya tufanı"na bağlasaq, daha doğru olar. Sivilizasiyanın başlanğıcı həm də ilkin həyat tərzinin formalaşmasına səbəb olan düşüncələrdən başlayır. Şəxsi baxış aspektimə görə dəyərləndirdiyim bu yanaşma baxımından dəyərli elm adamı, mərhum tarixçi-etnoqraf Hacı Qadir Qədirzadənin "Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan" adlı kitabı debütün dinamik və detallı təsviri üçün ideal vasitədir.

*"Seytnot"*

Bu şahmat termini düşünmək üçün vaxtın çatışmazlığı anlamını ifadə edir. Ən çətini də məhz budur. Qısa vaxt ərzində ən uyğun variant tapmalı və ya ağlabatan gediş etməlisən. Bu situasiya üçün ən ideal bənzətmə, düşünürəm ki, 90-cı illərin əvvəlindəki siyasi-iqtisadi böhran, hərc-mərclik və müharibə dövrüdür. Təəssüflə xatırlayırıq ki, ölkəmiz bu mərhələdə olduqca ağır günlər yaşadı – xarici və daxili qüvvələrə qarşı mübarizə, qanlı savaşlar, insanlıq tarixində qara ləkəyə çevrilən kütləvi qırğınlar, vətəndaş çaxnaşması... Sadaladıqca ruhun diksinir, xatırladıqca da beynin oyanır. Doğrudur, yeni nəsil üçün fərqli duyğulardır. Məsələn, Xocalı qətliamı zamanı hələ dünyaya gəlişimin 3-cü ongünlüyünü yaşayırdım. Kədər nədir, qəhər nədir anlamasam da, ən əsası yaşayırdım... Yaxın, ilk görənlər də deyiblər ki, "böyük kişi olsun!" Bax elə o an əsl kişilər səngərdə savaşırdı – məni, səni qorumaq üçün. Əsl kişilər döyüş ruhu aşılayırdı, istiqlal eşqinə səsləyirdi. Heyif ki, bəs etmirdi. Ölkənin bu vahiməli dövrünü şahmat taxtasına köçürsək belə, yenə məğlubiyyət qaçılmaz olar. Bu vəziyyəti yalnız müdriklik, qətiyyət və ən əsası, ağıl dəyişə bilərdi. Xalqın iradəsi, tələbi və istəyi ilə taleyüklü missiyanı dahi Heydər Əliyev öhdəsinə götürdü. Cavab görüşünədək düşünülən uğurlu strategiya və manevrləri məsələnin taleyinə aydınlıq gətirdi. Ordu quruculuğundan, siyasi-iqtisadi proseslərədək bütün sahələrdə etibarlı təməllər atıldı, yeni inkişaf yolu cızıldı və bu yol, heç şübhəsiz ki, uğura aparırdı.

*"Qalaqurma"*

"Ən yaxşı müdafiə hücumdur!" – deyirlər. Şahmatın əsas fəlsəfəsi isə səbirli və təmkinli davranmaqdır. Dilimizdə "dünya bir günə qurulmayıb ki?!" deyə istifadə etdiyimiz fikrin təməlində belə, zamanın dəyəri, məfhumu dayanır. Əlincəqalanın müdafiə gücü ilə əyilməzlik simvolu yaradan xalqın xələfləri bu gün Şuşa qalasından düşmənə gözdağı verir. Qalanı aliləşdirən üçrəngli şanlı bayrağımız yağını öz gözündə adiləşdirir. Deməli, səbir və ağıl insan həyatında həlledicidir. 30 illik yurd həsrətini bitirən əsas amillərdən biri də bu idi. Zaman bizi daha güclü etdi – güclü intiqam hissinə rəğmən dünyaya sülhsevərlik nümayiş etdirməyimiz, uğurlu siyasi-iqtisadi strategiyanın qazandırdığı üstünlük və diplomatik həmlələr, modernləşdirilmiş ordu ilə artan güc potensialı və dövlət-xalq-ordu birliyi ilə əldə olunan zəfərin əsasında etibarlı müdafiə predmeti dayanır. Bu fikirləri ümumiləşdirib şahmat taxtası üzərinə köçürməli olsaq, adı "qalaqurma" olar. Ən güclü şahmatçılar belə, bu üsulu oyunun müəyyən qismində, adətən, əvvəlində tətbiq edirlər ki, rəqibi mat etmək üçün daha rahat manevrlər imkanı qazansınlar. Seytnotla bağlı fikirləri xatırlayaq. Deməli, bu revanşın təməli qalaqurmadan başlayıb.

*"Mat"*

Şahmatda "mat" anlayışı müdafiəsiz elan edilmiş şah mənasını verir və çıxılmaz vəziyyətdə qalan tərəfin məğlubiyyəti ilə ölçülür. Fərqi yoxdur, istər məcburi, istərsə də "taktiki geriçəkilmələr" et. Nəticə etibarilə, yaranmış həmin vəziyyətin adı məğlubiyyətdir – 44 günlük Vətən müharibəsində olduğu kimi. Etiraf




edim ki, bir azərbaycanlı kimi mat ifadəsini böyük qürurla işlətməyin həzzini yaşayıram. Bu qüruru bizə yaşadanlar və buna vəsilə olanlara minnət və sayğı borcumuz əbədidir. Hər iki müharibə dövrü və aradakı zaman kəsiyində əsgər və zabitlərimizin rəşadətli, qəhrəmanlıqlarla zəngin döyüş yolu qarşısında çoxları mat qaldı. Şanlı qələbəmiz yad ambisiyaları, nəinki mat, tamamilə darmadağın etdi. Azərbaycan Ordusu icra etdiyi uğurlu döyüş əməliyyatları ilə dünya hərb tarixində yeni metodların tətbiqinə nail oldu. Dünyanın müxtəlif ölkələrini təmsil edən hərbçilər, bu sahə üzrə mütəxəssis və ekspertlərin fikrincə, Azərbaycan 21-ci əsrdə müharibə aparmaq nümunəsini ortaya qoydu.

İstər Ali Baş Komandan, istərsə də Prezident kimi cənab İlham Əliyev qələbənin qazanılmasında başlıca rol oynadı. 17 illik rəhbərliyi dövründə ölkədə inkişaf və sabitliyin təminatçısına, parlaq gələcəyin müjdəçisinə çevrilən ölkə başçısından gözlənilən də məhz bu idi. Döyüş əmrinədək olan prosesləri, müharibə dövrü və sonrakı mərhələni düşündüyümüzdə ortaya çıxan mənzərə heyrətamizdir. Cənab Prezidentin müxtəlif cəbhələrdəki inamlı mübarizəsi, qətiyyətli və prinsipial mövqeyi, uğurlu diplomatik həmlələri, operativ və obyektiv yanaşmaları qələbəyə gedən yolun əsas meyarlarına çevrildi. Qısa müddətdə, uzunmüddətli strategiyaya əsaslanan zəfər qazanıldı. İndi zəfər çələngi Qarabağımızı bəzəməkdədir.

Şahmatda, adətən, mata səbəb olan son gedişdən sonra hörmət əlaməti olaraq əl sıxıb görüşürlər. Bu həmçinin rəqibin məğlubiyyətlə barışması, qalib tərəfi təbrik etməsi kimi dəyərləndirilir. Tarixi ədalətin bərpası ilə barışmayanlar, məğlubiyyətlərini qəbul etməyənlər üçün isə "dəmir yumruq" hər an işə düşə bilər.

**Emil SƏMƏDOV**



*Salam, əziz dost. Yenə hüzurundayam. Axşam yuxumda səninlə danışırdım. Birlikdə idik. Üzünüz gülürdü. Sanki yuxum çin çıxıb. Fərqlilik var səndə. Tək səndə yox, hamınız bu gün başqa cür baxırsınız üzümə.*

## Şəhid oldum, ölmədim

### Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş mayor Vüsal Vəliyevin əziz xatirəsinə

– Sevincliyik, qardaş. Bilirsən? Biz elə bir orduyuq ki, təkcə ailəmiz, dostumuz, qohumlarımız yox, bütövlükdə, xalqımız bizimlə öyünür.

*– Elədir, qardaş. Hər adama qismət olmayan zirvədə durmusunuz. "Dəmir yumruq" ətrafında birləşərək 44 gün ərzində heç kəsin fəth edə bilmədiyi bir zirvəyə yüksəldiniz, bizi də zirvələrə ucaltdınız. De görüm, şəhadət yüksəlişindən Vətəni necə seyr edirsən?*

– Hər kəs gəlir, bizləri ziyarət edir. Yaxınlarım gələndə üzüntüdən bəzən kədərlənib göz yaşı axıdırlar. Amma biz bu gün çox sevincliyik. Sən görməmisən Şuşa səmasını. Bax bu igidlərlə mən o səmadan "Xarıbülbül" Musiqi Festivalını izlədik. Hələ onu da deyim ki, "Azərbaycan", "Naxçıvan" mahnılarını birgə ifa etdik. Onlar Vətən torpağından, biz isə Vətən səmasından. Vaxtilə mərmi, top səsləri gələn diyarımızda "Qarabağ şikəstəsi"nin səsi eşidilirdi.

*– Deməli sevincinizin səbəbi bu imiş?*

– Hələ var… Onu da deyim ki, atamla birlikdəyəm. Atam da mənimlə o səmada idi. Atam bu torpaqlarda çox olub, yaxşı tanıyır bu əzəli torpaqlarımızı. Şəhadətə yüksəlmiş gənclərə atam o müqəddəs diyarın tarixi yerlərini tanış edir. Bizim üçün bundan sevincli gün ola bilərmi? Qısa zamanda Ananı çox sevdiyi, onunla fəxr etdiyi balasına qovuşdurduq. Biz onun üçün bu zirvəyə sevə-sevə yüksəldik.

*– Əziz dostum, bu qəhrəman yurd siz qəhrəmanlarını heç vaxt unutmayacaq.*

– Qardaş, tək mən yox, hamımız bunun şahidiyik. Bu xalqın Vətən sevgisi bulaq kimidir. Onu kökdən qazıyıb atmaq olmayacaq. Hər zaman bu torpaqda müdriklər, bizim kimi igidlər yetişəcək.

*– Çox haqqın var bizlərin üzərində. Haqqını halal et.*

– Bu torpaq bizi yetişdirdi, böyütdü, ərsəyə gətirdi.

*– Halal olsun. Ruhun şad olsun, cənab mayor.*

– Vətən sağ olsun!

**Sərxan İSMAYILOV**

## Culfa rayonunda 252 nəfərin müayinəsi həyata keçirilib



*"Naxçıvan Diaqnostika Müalicə Mərkəzi" Publik Hüquqi Şəxsin 10 müxtəlif ixtisaslı həkim heyəti və EKQ üzrə tibb bacısından ibarət tibb heyətinin iştirakı ilə Culfa rayonunda humanitar tibbi aksiya keçirilib.*

Növbəti aksiyada otorinolorinqoloq 18, dermatovenerolog 24, oftalmoloq 15, invaziv kardioloq 35, terapevt isə 18 pasiyenti müayinədən keçirib. Xəstəxanaya müraciət edənlər, həmçinin endokrinoloq, nevropatoloq, ürək-damar cərrahı, ümumi cərrah, nefroloq tərəfindən də müayinələrlə əhatə olunublar. 30 nəfər isə elektrokardioqrafiya müayinəsindən yararlanıb, onlara tibbi göstərişlər verilib.

Axşam saatlarınadək davam edən humanitar tibbi aksiyada, ümumilikdə, 252 nəfərin müayinəsi həyata keçirilib. 3 nəfər müalicə üçün Diaqnostika Müalicə Mərkəzinə dəvət olunub.

Culfa rayonunun Ərəfsə kəndindən Şahin Həsənov, Culfa şəhərindən Çərkəz Sultanov, Sura Məmmədova başqa yerlərə getmədən ərazidə yerləşən səhiyyə müəssisəsində müayinə olunduqlarına görə minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndiriblər.

Diaqnostika Müalicə Mərkəzinin həkim və tibb işçiləri yerli həkimlərə tibbi avadanlıqların işləmə qaydalarını da öyrədib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Düzgün tutulmamış və ya artıq ödənilmiş dövlət rüsumu hansı müddətdə geri qaytarılır?*

***Cavab:*** "Dövlət rüsumu haqqında" Qanuna əsasən düzgün tutulmamış və ya artıq ödənilmiş dövlət rüsumu ödəyicinin ərizəsinə əsasən 45 gün müddətində ona qaytarılır və qaytarılma üçün 5 il ərzində iddia verilə bilər.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Naxçıvanlı yeniyetmələr beynəlxalq marafonda III yerə layiq olublar



Xüsusi çubuqların vasitəsilə qolların və ayaqların tam hərəkətinə imkan verən skandinav yürüşü idman növü bütün dünyada sürətlə yayılır. Hərəkət zamanı bədən əzələlərinin 90 faizinin işlək vəziyyətdə olması, onu digər idman növlərindən (qaçış, velosiped, üzgüçülük və sair) əhəmiyyətli dərəcədə fərqləndirir və orqanizmin daha çox kalori yandırmasına səbəb olur. Heç bir yaş məhdudiyyəti qoyulmadan hər kəsin açıq hava şəraitində məşğul ola biləcəyi skandinav yürüşü, həm də pandemiya dövründə dünya ölkələrində ən çox təşkil edilən onlayn yarışları ilə diqqət çəkir. Artıq iki ilə yaxındır, bu idman növü üzrə davamlı məşğul olan naxçıvanlı yeniyetmələr – 16 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi Elşad Həsənli və həmin məktəbin 7-ci sinif şagirdi Vəli Həsənov növbəti dəfə skandinav yürüşü üzrə beynəlxalq yarışda iştirak edərək III yerə layiq görülüblər.

Belə ki, aprelin 3-dən 10-dək Rusiya Federasiyasının Rostov-Don şəhərində skandinav yürüşü üzrə beynəlxalq marafonda onlayn olaraq iştirak edən yeniyetmələr 8 gün ərzində gündəlik 30 kilometrdən çox məsafəni yarışın qaydalarına uyğun qət edərək (xüsusi proqram vasitəsilə) 259,5 kilometrlə III yerin qalibi olublar. 9 ölkədən 400-ə yaxın idmançının qatıldığı yarışda Elşad Həsənli və Vəli Həsənov iştirakçılar arasında azyaşlı olduqlarına görə həm də "Marafonun ən gənc iştirakçıları" diplomu və kubokla təltif ediliblər.

Qeyd edək ki, ailə komandası olaraq yarışda iştirak edən idmançılar bu ilin yanvar ayında Özbəkistan Respublikasının Səmərqənd və mart ayında Rusiya Federasiyasının Tolyatti şəhərlərində keçirilən skandinav yürüşü üzrə beynəlxalq marafonlarda da Azərbaycanı təmsil edərək medal və diplomlarla mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 442